# Ulu öndər ehtiramla anılıb

## Dahi şəxsiyyət, parlaq siyasi xadim

(Əvvəli 1-ci səhifədə).

kəmli dövlət xadiminə, XX əsrin siyasi həyatında mühüm yer tutmuş, ən yüksək vəzifələrin məsuliyyətini daşımış insana dərin hörmət və ehtiram bəslənilib.

Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün güc mənbəyidir. Həyatımızın elə bir sahəsi yoxdur ki, orada ümummilli liderimizin izi olmasın.

Ümummilli liderimizin bizə ərmağan qoyub getdiyi zəngin irsi bu gün də, sabah da öyrənilməli, onun əsas mahiyyəti dərk edilməlidir. İctimai həyatımızın elə bir sahəsini tapmaq mümkün deyil ki, orada Heydər Əliyevin hərarəti duyulmasın.

Çoxəsrlik dövlətçilik tariximizdə müstəsna yeri olan Heydər Əliyev özünün zəngin siyasi fəaliyyəti sayəsində ölkəmizin hərtərəfli inkişafı prosesinə təkan verərək, onu daimi yüksəliş yoluna çıxarıb.



Bu dahi şəxsiyyətin müəyyənləşdirdiyi müdrik siyasi kurs bu gün də, gələcəkdə də dəyişməz olaraq qalacaqdır. Çünki bu siyasət Azərbaycana daim uğur, xoşbəxtlik gətirir.

Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Əminik ki, ulu öndərimizin bütün arzuları çin olacaq və Azərbaycan dünyanın ən qüdrətli dövlətləri arasında özünə layiq yüksəkliyə ucalacaqdır.

Biz bu gün ulu öndərimizi xatırlayır, iftixarla deyirik ki, Azərbaycanın ümummilli lideri, xalqımızın xilaskarı, müstəqil dövlətimizin memarı Heydər Əliyev bizim qəlbimizdə daim yaşayacaq, gələcək nəsillər onun həyat yolunu araşdıracaq və öyrənəcəklər.

**Varis YAQUBOV.**

# Ümummilli lider Heydər Əliyevin anım günü Qəbələ rayonunda böyük ehtiramla qeyd olunub





Ümummilli lider Heydər Əliyevin anım günü Qəbələ rayonunda böyük ehtiramla qeyd olunub. Dekabrın 12-də on minlərlə qəbələli dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirmək üçün onun abidəsinin ucaldığı Heydər Əliyev Parkına axışıb. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, RİH aparatının, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin, təhsil, səhiyyə, mədəni-maarif ocaqlarının, özəl qurumların kollektivləri, ictimaiyyətin nümayəndələri böyük izdihamla ümummilli liderin abidəsi qarşısına gələrək, önünə gül-çiçək dəstələri düzüb, ulu öndərə dərin ehtiramlarını bildiriblər.

Ulu öndər Heydər Əliyevin anım günü axşama qədər davam edib.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin anım günü ilə əlaqədar hələ noyabr ayının sonundan başlayaraq rayonun idarə və müəssisələrində, təhsil, səhiyyə və mədəni-maarif ocaqlarında silsilə tədbirlər keçirilib.

Tədbirlərdə dahi rəhbərin Azərbaycana rəhbərliyi dövründəki yorulmaz fəaliyyətindən danışılıb. Bildirilib ki, ölkəmizin müstəqilliyinin qorunub saxlanılması, dayanıqlı təməl üzərində yüksəlişi Heydər Əliyevin adı ilə bağlıdır.



"Qəbələ"
**İlkin Vəlizadə (foto).**

# Ümummilli lider Heydər Əliyevin xatirəsi yad olunub

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilib.

Təhsil Mərkəzinin direktoru Namik Muradov ümumilli lider Heydər Əliyevin həyat yolu haqqında tədbir iştirakçılarına geniş məlumat vermişdir. O bildirmişdir ki, Heydər Əliyev bütün ömrünü doğma vətəni Azərbaycana, Azərbaycan xalqına həsr etmişdir. Hələ Sovet hakimiyyəti illərində Azərbaycana rəhbərlik edərkən dövrün qadağalarına baxmayaraq Heydər Əliyev Azərbaycanı müstəqillik illəri üçün hazırlamışdır. Azərbaycanı geridə qalmış respublikalar sırasından çıxararaq güclü iqtisadiyyata, təhsilə, mədəniyyətə, kadr potensialına malik bir respublika səviyyəsinə qaldırmışdır.

Qeyd olunmuşdur ki, ötən əsrin 90-cı illərinin əvvəllərində yaranmış tarixi şərait və xalqımızın əzmkarlığı nəticəsində ölkəmiz öz müstəqilliyinə qovuşmuşdur. Ancaq müstəqilliyin ilk iki ili çox gərgin keçmiş, o dövrki rəhbərlərin səriştəsizliyi üzündən itirilmək təhlükəsi ilə üzbə-üz qalmışdır. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev Azərbaycanı ağır və sərt sınaqlardan məharətlə çıxarmış, onun bu günkü həqiqətlərinin, işıqlı sabahının bünövrəsini yaratmışdır. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla uğurla irəliləyir. Azərbaycan xalqı ulu öndərin xatirəsini daim əziz tutur.

Digər çıxış edənlər ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin ayrı-ayrı sahələri barədə danışmışlar.

"Qəbələ"

# Ulu öndər Heydər Əliyevin anım gününə həsr edilib

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə Qəbələ Olimpiya İdman Kompleksində ümummilli lider Heydər Əliyevin anım gününə həsr edilmiş xatirə turniri keçirilib.

Məktəblər arasında keçirilən turnirin iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Xatirə turnirində gərgin oyun nümayiş etdirən 8 komandadan Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin komandası birinci yeri və Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin komandası ikinci yeri tutub.

Ümummilli lider Heydər Əliyevin anım gününə həsr edilmiş xatirə turnirinin qaliblərinə rayon gənclər və idman idarəsinin kubok və diplomları təqdim edilib.

«Qəbələ»